UOT-811.11-112
Səhifə: 86-94
https://doi.org/10.59849/2663-8967.2026.2.86

Nəsibə Abbasova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru
abbasova64@internet.ru
https://orcid.org/0009-0007-0342-3112

DİL LAKUNALARININ QISA NƏZƏRİ-PARADİQMATİK SƏCİYYƏSİ

XÜLASƏ

Məqalədə lakuna fenomeninin dilçilikdə XX əsrin ikinci yarısından istifadə olunduğu və həm dilçiliyin (linqvokulturologiya, psixolinqvistika, sosiolinqvistika və s.), həm də mədəniyyətşünaslığın (sosiokulturologiya, etnoqrafiya, etnokulturologiya və s.) müxtəlif aspektlərinə aid olduğu bildirilir. Linqvistik lakuna və dil lakunarlığı nəzəriyyəsinin eksplikativ tədqiqinin inkişafı tarixi sübut edir ki, dil və nitq vahidlərində lakunarlıq probleminin öz konkret elmi-nəzəri təhlilini tapmaması səbəbindən bu fenomenin mürəkkəbliyini və qeyri-müəyyənliyini əks etdirən bir çox ciddi və fundamental tədqiqatlar üzə çıxarmışdır. Belə ki adıçəkilən "linqvistik lakuna və dil lakunarlığı" anlayışları arasında konkret bir fərqin olmamasını və yaxud dildə lakunarlıq xüsusiyyətinin və lakunar vahidin mübahisəli anlayışlar olduğunu təsdiqləyən bir qrup dilçi-tədqiqatçılar lakunanın kulturoloji mahiyyətindən daha çox onun linqvistik xüsusiyyətlərini araşdırmaq məqsədi ilə müxtəlif təsnifatları(mütləq, nisbi, üslub, vektorial, motivasiyalı, motivasiyasız və s.) və eliminasiya üsullarını nəzərə almışlar. Demək lazımdır ki, müasir dünya dilçiliyində (Avropa, Rusiya, Asiya, Azərbaycan) dil lakunaları probleminə elmi-nəzəri baxış çox geniş əhatəli bir külliyyatı özündə əks etdirir. Linqvistik-nəzəri külliyyatda **lakunalar** dilin leksik sistemində (dil daxilində) müəyyən bir anlayışı ifadə etmək üçün bir sözün olmaması, **lakunarlıq** isə bir xalqın milli-mədəni, tarixi və ya sosial-ictimai xüsusiyyətlərinə əsaslanan dünyagörüşündəki (xüsusilə dillər arasında) uyğunsuzluq faktı kimi qəbul edilir. Nəzəri dilçilikdə linqvistik lakuna fenomeninin öyrənilməsi məsələsi dilçiliyin müqayisəli-tipoloji təhlili sahəsində və tətbiqi-tərcümə proseslərində böyük elmi-praktik əhəmiyyət kəsb edir. Özünü müxtəlif formalarda - leksik, qrammatik və mədəni formalarda göstərən lakunaların və ümumiyyətlə dildə lakunarlığın öyrənilməsinə həsr edilmiş çoxsaylı fundamental tədqiqatlara əsasən bildirmək olar ki, dünya dilçiliyi lakunalar fenomenini öyrənməklə dillər və xalqlararası ünsiyyətin və milli-mədəni mübadilənin zənginləşməsinə xüsusi töhfə verir. Müxtəlif mədəniyyətlərin linqvistik spesifikliyini araşdırmaq, dillərarası dialoq iştirakçılarının düşüncələrindəki eynilik və ya fərqlilik dərəcələrini öyrənmək, habelə lakunarlıq fenomeninin mürəkkəb təbiətini müəyyən etmək bu araşdırmanın əsas məqsədini təşkil edir və uğurlu tərcümə taktika və strategiyalarını seçməklə lakuna nəzəriyyəsinin yerli və əcnəbi düşüncələrin uyğunlaşdırılmasında və ya inteqrasiyasında rolu və əhəmiyyəti dəyərləndirilir.

Açar sözlər: *linqvistik lakunalar, lakunarlıq fenomeni, milli – spesifik dil uyğunsuzluğu, metalinqvistika, lakunologiya.*

Giriş: Məlum olduğu kimi, "lakuna" termini elmin müxtəlif sahələrində istifadə olunur və bu termin intensiv istifadə olunduğu sahələrdən – biologiya və botanika, anatomiya və fiziologiya, psixologiya, gəmiqayırma və s. sahələrdən asılı olaraq fərqli mənalar kəsb edir. Lakuna terminin dilə aid olması faktı ilə maraqlandıqda, onun dilçilikdə XX əsrin ikinci yarısından istifadə edildiyinin və həm dilçiliyin (linqvokulturologiya, psixolinqvistika, sosiolinqvistika), həm də mədəniyyətşünaslığın (etnokulturologiya, etnoqrafiya, psixokulturologi-ya, və s.) müxtəlif aspektlərinə aid olduğunun şahidi oluruq.

Bu linqvistik fenomeni araşdırmazdan əvvəl qeyd etmək lazımdır ki, dilçilər hələ də lakunanın birmənalı tərifini verə bilməmişlər. Xüsusilə nəzəri dilçilikdə lakuna və lakunar vahid anlayışları arasında dəqiq bir fərqin olmaması səbəbindən bir çox mübahisəli məsələlər ortaya çıxmışdır. Daha doğrusu, dil və nitq vahidlərində lakunarlıq problemi hələ də öz konkret elmi həllini tapmadığı üçün bu fenomenin mürəkkəbliyi və qeyri-müəyyənliyi bir çox ciddi və fundamental tədqiqatlarda əks olunmaqda davam edir.

"Lakuna" termini ilk dəfə dilçiliyə birbaşa fransız mənşəli Kanada dilçiləri J. Vine və J. Darbelne tərəfindən daxil edilmişdir və onlar lakunanı iki dildən birində olan bir sözə digər dildə uyğun söz olmadığı zaman üzə çıxan fenomen kimi təyin etmişlər. [1, s.9] Bu linqvistik formul dil lakunası barədə indiyədək ən geniş yayılmış klassik tərifdir və hazırda dünya dilçilərinin əksəriyyəti tərəfindən mübahisəsiz qəbul edilir. Demək olar ki, "lakuna" termini Kanada dilçiləri tərəfindən dillərarası müstəvidə elmi dövriyyəyə daxil edilsə də, müasir dünya dilçiliyində dil lakunaları probleminə elmi-nəzəri baxış çox böyük əhatəli bir külliyyatı özündə əks etdirir. O qədər də fərqli, ziddiyyətli xarakter daşımayan bu nəzəri külliyyatda lakunalar həm bir dilin leksik sistemində(dil daxilində) müəyyən bir anlayışı ifadə etmək üçün bir sözün olmaması, həm də xalqların milli-mədəni, tarixi və ya sosial-ictimai xüsusiyyətlərinə görə yaranan dil dünyagörüşündəki semantik boşluq (qarşılıqsız, əvəzolunmaz ifadələr), yəni dillər arasında uyğunsuzluq faktı kimi qəbul edilir. Deməli, lakuna və lakunarlıq dilçilikdə dillər arasında tərcümədə uyğunsuzluqları və anlaşılmazlıqları əks etdirən əsas anlayışlar olsalar da, lakuna, bir dildə bir sözün digərində tam ekvivalentinin olmaması və tərcümə çətinliklərinə səbəb olduğu leksik uyğunsuzluq, lakunarlıq isə öz növbəsində bütövlükdə lakunaların həm leksik, həm də semantik-qrammatik boşluğun doldurulmasının heterogenliyini (müxtəlif çeşidlilik) əhatə edir.

Lakuna və dil lakunarlığı nəzəriyyəsinin eksplikativ inkişafı, yəni bu anlayışların birlikdə nəzəri öyrənilmə tarixinin tədqiqi fransız dilçisi M. Hallio, kanadalı dilçilər J. Vine, J. Darbelne kimi ilkin mərhələdə, sonralar tədricən avropalı linqvistlər K.Heyl,Ç.Hokket, M.Şatluort, M.Koun, M.Daqat, B.Dellincer, V. Doroşevski, A.Ertel-Fit və b., daha ciddi şəkildə isə rusiyalı dilçilər S. Florin, S. Vlahov, V.V.Vinoqradov, L.S. Barxudarov, V.Q. Kostomarov, V. L. Muravyov, V. Q. Qak, Y.A. Sorokin, İ.Y. Markovina, İ.A. Sternin, Z. D. Popova, E.M. Vereşagin, G.D. Qaçev, Y.S. Stepanov, Q.V. Bıkova, V.Q. Huk, L.K. Bayramova, K.M. Abişeva, B.T. Qulboyeva və başqalarının araşdırmalarında məqsədyönlü şəkildə izlənilmişdir [10].

Müasir italyan dilçiləri L. Bentivogli və E. Pianta dil lakunaları haqqında yığcam şərh verərək: "Leksik lakunalar dildə bir anlayış bir leksik vahidlə təmsil olunduqda, ikinci dildə isə eyni anlayış sərbəst ifadələrlə verildikdə yaranır" qənaətinə gəlmişlər [26, s.663]. Onlar müqayisə etdikləri italyan və ingilis leksikası arasındakı lakunar uyğunsuzluqların linqvistik-koqnitiv nəticələrini araşdıraraq, çoxdilli leksik verilənlər bazasının yaradılmasını hədəfləyən MultiWordNet layihəsini təqdim etmişlər və bununla da lakunaların eliminasiya (doldurma, kompensasiya, kombinə olunmuş, praktik aydınlaşdırma və s.) üsullarını təmin edəcək bir sistem yaratmışlar.

Müasir Çin dilçiliyində linqvistik lakunarlıq fenomenini tədqiq edən D.Yanlinq, T. Zaysi, V.Bincin, X.Jipin, L. Çunyone və digər alimlər lakunaların dildə və dillərdə ümumi-nəzəri dilçilikdə öz yerini tapmış "leksik boşluq" anlayışına aid olduğunu təsdiq etsələr də, lakin lakuna və lakunarlıq terminləri arasında aydın sərhədlərin müəyyən edilmədiyini bildirmişlər. Onlar milli-mədəniyyət və dillərdəki mürəkkəb fəlsəfi- mental, piktoqrafik, ideoqrafik və digər fərqlərə görə bir dildə mövcud olan bir sözə başqa bir dildə ekvivalent sözün mütləq olmaya biləcəyini, beləliklə də böyük əhatəli Asiya dilləri ilə bərabər həm də onlara məxsus mədəni adət-ənənələrlə sosial inteqrasiyaya girən qərb, rus, avropalı dil və mentallıqları arasındakı "heroqlif münasibətlər"in müxtəlif lakunar forma fərqliliklərində (sözlər, sabit söz birləşmələri, hətta mətn-kiçik janr qismində) olduğunu təsdiqləmişlər. Bu mövzu ilə bağlı həm dildaxilində, həm dillər arasında, həm də eyni zamanda ictimai-mədəni münasibətlərdə lakunarlıq fenomeninin olduqca ciddi problemlər yaratdığını və bu sahədə görüləcək işlərin çox böyük əhəmiyyət daşıdığını xəbər vermişlər [27, s.7].

Keçmiş SSRİ-ni müəyyən mənada əvəzləmiş Müstəqil Dövlətlər Birliyinin (MDB) hüdudları çərçivəsində linqvistik lakuna və lakunarlıq fenomeninin nəzəri-praktik öyrənilməsi problemini araşdırdıqda müasir Özbəkistan və Qazaxıstan dilçiliyində bu sahədə xüsusilə diqqətəlayiq fundamental tədqiqatlar üzə çıxır. Müasir özbək dilçililəri Ş.X.Usmanova, Z.T.Xolmonova, O.Səidəhmədova, O. Nurullayeva, X.Негматов, P.Расулов, D.U.Haşımova, N.X. İsmətullayeva, D.Q.Tolipova və başqalarının tədqiqatlarında dilin lakunar vahidlərinin leksik-semantik təsnifatı və bu təsnifat daxilində linqvistik və etnoqrafik; dildaxili və dillərarası; motivasiyalı və motivasiyasız və s. kimi vacib amillər müəyyən edilərək əsaslandırılmışdır; habelə lakunaların struktur-semantik təsnifat prinsiplərinin işlənməsi və lakunar birləşmələrin struktur-qrammatik və digər linqvokultural xüsusiyyətlərinin təhlili aparılmışdır. Bu alimlər özbək və rus dillərində lakunar vahidlərin milli xüsusiyyətlərinin və etnik, milli-mədəni xüsusiyyətlərini hərtərəfli müqayisə etmişlər. Qeyd etmək lazımdır ki, bu tipli müqayisəli-tipoloji tədqiqatlarda lakunarlıq fenomeninin həm linqvistik, həm də kulturoloji aspektlərinə diqqət yetirilir, belə ki, məsələyə belə mövcud fənlərarası yanaşma cəhdi dillər və mədəniyyətlərarası ünsiyyətin praqmatik mürəkkəbliyini və çoxşaxəliliyini daha dərindən anlamağa imkan verir.[22, s.135]

Müasir Qazaxstan dilçilyində T. F.Vahidova, Z.K.Sabitova, B.S.Qulbayeva, A,T. Rısbek, D.N. və A.M. Bayqutlar, A.A.Hacıyeva və başqalarının tədqiqatlarında qazax dilinin spesifik-sterotip vahidləri olan lakunaların linqvokulturoloji təhlili vasitəsilə doğma dilin milli dil-mədəniyyət dünyasının özəlliyini təqdim edilir [13, s.3]. Onu da vurğulamaq lazımdır ki, qazax tədqiqatçıları da özbək həmkarları kimi öz araşdırmalarında əsasən müqayisəli-tipoloji metodu tətbiq etmişlər və bir qədər dəqiqləşdirsək, müasirləri İ. A. Sternin və Z. D. Popovanın təklif etdikləri üsulla - ikidilli lüğətlərdən istifadə etməklə lakunaların müəyyən olunması və onların keyfiyyətli eliminasiyası fikrini irəli sürürlər. Onlar həmçinin əlavə struktur-semantik metod işığında qazax dilində lakunar sözlərin və onların lüğətə daxil edilən geniş sinonimlər cərgəsinin "öz" və "özgə" mənalarının izahını verməyə müyəssər olurlar. Qazax dilçilərinin ümumilikdə gəldikləri rəy budur ki, lakunalar mill-mədəni identifikasiya və millətlərarası inteqrasiya prosesində müşayiət olunan koqnitiv-linqvistik amildir, lakunar dil vahidlərinin implisit-konnotativ semantikasını təhlil etməklə istənilən etnik qrupun inkişaf tarixi, onlara xas adət-ənənələr və mentaliteti haqqında məlumat əldə etmək olar. Kulturoloji özəlliklər nəticəsində formalaşan dillər arasındakı fərqlər özünü əsasən leksik səviyyədə daha çox göstərir, çünki bu, ekstralinqvistik reallıqlarla sıx bağlıdır [6, s.83].

Yeri gəlmişkən bildirək ki, linqvistik lakunaların tədqiqi müasir dilçilik nəzəriyyələri kontekstində müxtəlif yanaşma və konsepsiyaları əhatə edir. Müasir dilçilikdə bütün lakunaları bir elmi prinsipə görə təsnif edən təkmeyarlı tipologiya hələ mövcud deyil. Lakunaların öyrənilməsinə hermenevtik, linqvokoqnitiv və linqvistik yanaşmalar müxtəlifliyi öz məhsuldarlığı ilə müasir dilçilikdə araşdırmaçıların diqqətini cəlb edir. Bu elmi konsepsiyalardan ən əhəmiyyətlisi XX əsrin ikinci yarısında rusiyalı dilçilər Y. A. Sorokin və İ. Y. Markovina tərəfindən hazırlanmış məşhur lakuna nəzəriyyəsidir ki, bu nəzəriyyə lakuna anlayışının, onun təsnifatını, dillər və mədəniyyətlərarası qarşılıqlı münasibətlərə təsirini və lakunaların aradan qaldırılması imkanlarını araşdıran bir platforma olaraq, bir çox fundamental tədqiqatların əsasını təşkil edir [18, s.19]. Bu sahədə ikinci vacib konsepsiya V. Q. Qakın konsepsiyasıdır ki, burada lakunalar "dilin leksik sistemindəki boşluqlar" şəklində təqdim olunaraq, öz semantik funksiyasına görə dildə əslində mövcud olmalı olan sözlərin o dildə çatışmazlığı kimi izah olunur. [15]

Müasir dilçilikdə linqvistik lakunaları öyrənmək üçün aşağıdakı metodlardan istifadə olunur: 1) Müqayisəli və kontrastlı təhlil metodu vasitəsilə tutuşdurulan dillərdə lakunar ifadələrin ortaq və fərqli xüsusiyyətləri müəyyən etmək mümkün olur. 2) Müqayisəli işlədilmə (tezlik) sayma metodu— məsələn, nisbi lakunaları müəyyən etmək üçün tətbiq edilən bu metod vasitəsilə hər hansı bir sözün başqa dildə nə qədər fəallıq kəsb etməsini dəqiqləşdirmək olur. 3)Kontekstual təhlil metodu (təsviri-sinxron və induktiv-deduktiv üsullar) vasitəsilə dünyanın konseptual mənzərəsini təmsil edən tipoloji lakunar kontekstlərin öyrənilməsi daha məntiqi nəticələr əldə etməyə imkan verir.

Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, lakunar vahidlər istənilən dilin milli və mədəni spesifikliyinin əhəmiyyətli bir hissəsini təşkil edir, onlar həmçinin bir dil sisteminin digərinə nisbətən koqnitiv unikallıq və fərqliliklərini ortaya qoyur. Əgər bir dildə başqa bir dilə məxsus dil vahidinin leksik ekvivalentini tapmaq mümkün deyilsə, deməli, biz lakunar vahidlərin mövcudluğundan danısa bilərik. "Lakuna – başqa dildə ekvivalenti olmayan dil vahididir" kimi ümumiləşdirmiş tərif də belə nəzəri dəyərləndirmələrin məcmusu kimi qəbul edilir, habelə lakuna və ya ekvivalenti olmayan leksika anlayışı haqqında nəzəri düşüncələr toplusu eyni zamanda öz mürəkkəb terminoloji səciyyəsi ilə diqqəti cəlb edir.

Xüsusilə qeyd etmək lazımdır ki, lakuna fenomeninin dərindən öyrənilməsi müasir Rusiya dilçiliyində və tərcüməşünaslığında çox əhəmiyyətli yer tutmuşdur. Müasir Rusiya dilçiliyinə "lakuna" terminini daxil etmiş Y. S. Stepanov lakunaları "dilin semantik xəritəsindəki boşluqlar" adlandırmışdır [20, s.225]. Ümumilikdə, linqvistik lakunalar haqqında rus dilçiliyindəki müvafiq terminoloji külliyyatla tanış olduqda aydın olur ki, onlar ekvivalentsiz sözlər, "dilin leksik sistemindəki boşluqlar (dildə mövcud olmalı olan sözlərin olmaması" (V. Q. Qak), realiyalar (S. Vlaxov və S. Florinin), tərcüməolunmaz sözlər, alternativsiz, "ekvivalentsiz leksika", "mətndə boş yer", tərcümə edilməyən və ya fon leksikası (L.S. Barxudarov, Y.M. Vereşagin, V.G. Kostomarov), "mətnin qaranlıq məqamları" (R.Budaqov), "dil norması ilə sabitləşməmiş anlayışlar" (V.L.Muravyov), dil dünyagörüşündəki "boşluqlar" (Y.N.Karaulov), ekzotizmlər (O.A.Belyayeva, L.P. Yefremova), habelə diskursiv lakunalar və s. qismində tədqiqatlara cəlb edilir. [11] S. Vlaxov və S. Florinin lakuna fenomenini ifadə etmək üçün yanaşı realiya anlayışını təqdim edirlər və onu kulturoloji boşluq anlamı daşıyan ayrı bir linqvistik kateqoriya kimi düşünürlər, yəni "bir xalqın gündəlik, mədəni, sosial və tarixi həyatına xas olan və digərinə yad, anlaşılmaz söz və ifadələr, habelə başqa dildə alternativi və ya ekvivalenti olmayan sözlər" kimi qəbul edirlər. [9, s.24]

Rus tərcüməşünaslığının klassik əsərinə çevrilmiş L. S. Barxudarovun "Dil və tərcümə" əsərində aşağıdakı tərif verir: "Lakunalar bir dilin elə lüğət vahidləridir ki, nədənsə başqa bir dilin leksik tərkibində heç bir uyğunluğu yoxdur." [4, s.95] L. S. Barxudarov başqa bir dildə uyğun söz və ya müəyyən bir ifadəsi olmayan "təsadüfi lakunalar" qrupunu "nədənsə", "hansısa" deyə səbəblərdən yarandığını ayırd etməyə çalışırsa, fikrimizcə, bu səbəblər həmin dillərə sahib olan xalqların milli dünyagörüşü, təfəkkür müstəvisində reallığı necə təqdim etməsi ilə nəticələnən fərqlərdən asılıdır. Bu təqdimat vasitəsilə L.S. Barxudarov lakunaya kifayət qədər qısa bir şərh verir və realiyanı başqa dildə danışan insanların praktik təcrübəsində mövcud olmayan obyekt və anlayışları, həmçinin vəziyyətləri bildirən sözlər kimi izah edir [4, s.103].

Lakuna fenomeninin həm mədəniyyət, həm də dil sektoruna aid olduğunu nəzərə alaraq, onun təqdimi üçün "nitq nümunələrində təsadüfi qeydlər", etnoeydemalar, linqvakulturemlər və etnolinqvakulturemlər kimi başqa terminlər də mövcuddur və bu nümunələr istər dilçiliyə, istərsə də humanitar sahələri əhatə edən digər elmlərə (psixolinqvistika, sosiolinqvistika, linqvokulturologiya və s.) də şamil olunur. Etnopsixolinqvistikada lakuna nəzəriyyəsinin banisi sayılan Y. Sorokin lakunanı kulturoloji cəhətdən spesifik məna siqnalı hesab edir, lakuna növlərinin yaranma mexanizmi, onların fərqli taksonomiyasını (mütləq və nisbi, tam və qismən, nitq və zehni və s.) və müxtəlif lakuna modelləri kimi məsələləri araşdırır. [18] O, öz fikrini belə əsaslandırır ki, lakunanın böyük bir qolu olan "etnoqrafik lakuna"– bir mədəniyyətə xas olan realiyaların digər mədəniyyətdə olmaması ilə aşkara çıxan "mədəni boşluq" qismində əsasən mədəniyyətşünaslıqda və mədəniyyətlərarası ünsiyyət sahəsində öyrənilməlidir. Y. A. Sorokinlə həmfikir olan İ. Y. Markovina lakunaları bir xalqın mədəniyyətinə aid anlayış və spesifik-stereotip elementlərin digər mədəniyyətlər tərəfindən anlaşılmayan sözlər qismində ehtiva edir. Qətiyyətlə bildirmək olar ki, bir qədər sonra Q. A. Antipovun, O. A. Donskixin və də qatıldığı lakunologiya elmi hüdudlarında lakunarlıq anlayışının qavranılması və təfsiri, ümumiyyətlə lakunaların növ təsnifatı(linqvistik-leksik, qrammatik, stilistik və kulturoloji -etnoqrafik, psixoloji, davranış, kinesik və s.) və onların aradan qaldırılması üsullarını ətraflı təhlil etməyə nail olmuşlar. O. A. Oqurtsova lakunanı "müqayisə edilən dillərdən birində mövcud olan və digərində rast

gəlinməyən söz, ifadə (həm sərbəst, həm də frazeoloji), qrammatik kateqoriya" adlandırır [22, s. 82].

T.Danilçenko belə təqdim edir ki, qərb dilçiliyində isə lakuna problemi ilk növbədə nisbi dilçilik nəzəriyyəsinin yaradıcıları E.Sapir və B.Uorf tərəfindən dillər və mədəniyyətlər arasındakı əlaqə baxımından araşdırılmışdır. Onların araşdırmaları lakunalar fenomeninin daha dərindən başa düşülməsi üçün zəmin yaratmışdır. Sapir-Uhorf elmi konsepsiyasına əsasən dillərin insanların dünyagörüşünü, xalqların düşüncə tərzlərini formalaşdırdığını iddia olunur, yəni fərqli dillər fərqli düşüncə tərzlərini ifadə edir və bu, lakunalarda aydın şəkildə əks olunur. E.Sapir və B.Uorf həmçinin linqvistik relyativizm nəzəriyyəsini irəli sürərək, dillər və mədəniyyətlər arasındakı fərqləri təhlil edərək bir dilin strukturunun və leksikasının digərinə münasibətdə necə dəyişə biləcəyini göstərməyə müvəffəq olmuşlar. Onlar müxtəlif mədəni və semantik fərqləri lakunalar vasitəsilə müəyyən etməyə çalışmışlar və nəticə etibarı ilə tədqiqatlarında mədəni lakunaların tərcümədə necə ifadə olunduğunu və bu prosesin mürəkkəbliyini təhlil etməkdən ibarət olduğunu isbatlamışlar.[12]

Araşdırmadan belə fikrə gəlirik ki, filoloji tədqiqatlarda iki qismə bölünən dil(linqvistik) və etnoqrafik lakunalar fenomeninin təhlilindəki konseptual fərqlər öz generativ paradiqması ilə tədqiqatçıları müəyyən obyektiv mövqeyə cəlb edirlər. Bu konseptual fərqlər ilk növbədə lakunarlıq fenomeninin bir dildən digərinə tərcümə zamanı aşkara çıxarılan ekvivalentlik/ekvialentsizlik meyarları ilə məlum olur. İ. Panasyuk H.Şröderlə birgə qərar verirlər ki, "lakunanı təyin edərkən, əsasən mənbə mədəniyyətindən olan semaların itirilməsindən və ya onların hədəf mədəniyyətinin semaları ilə uyğunsuzluğundan danışmaq mümkündür" [28, s.24]. Z. D. Popova və İ. A. Sternin isə bildirirlər ki, dilçiliyin tətbiqi sahəsində- tərcüməşünaslıqda XX 90-cı illərindən etibarən daha intensiv şəkildə lakunalar öz ümumi səciyyəsi ilə, yəni dil və nitq sisteminin lakunar vahidləri tərkibində götürülərək, "müqayisə olunan dildə sərbəst ifadənin - perifrazanın köməyi ilə ifadə olunan sözlərə" [17, s.19-20] aid olunaraq transformasiya edilməyə başladı. Adıçəkilən araşdırmaçılar vurğulayırlar ki, "lakunaların əsas xüsusiyyəti onların ünsiyyət prosesində, iki mədəniyyət arasında təmas vəziyyətində yaranmasıdır". Z. D. Popova və İ. A. Sternin mövqelərinə şərik çıxaraq bir daha təsdiqləyirik ki, lakunar vahidin bir dildə mövcud olduğu halda, onun digər dildə olmamasıdır, bu tərifin yenə də birinci, klassik tərifə tam oxşarlığını görmək olar. Gördüyümüz kimi, tərcüməşünaslıqda da lakunanın məqsədyönlü şəkildə seçilmiş elmi izahatları Kanada dilçiləri tərəfindən verilən ilk klassik tərifdən bir qədər daha spesifik olsa da, həmin ilkin tərifdən o qədər də köklü şəkildə fərqlənmir. Sovet tərcümə nəzəriyyəsinin banilərindən sayılan leksikoqraf və böyük tərcümə təcrübəsinə malik Y. İ. Retsker lakunaların transformasiya problemlərinə aid funksional nəticələrində belə bir qeyd edirdi: "Lakunalar orijinal dilin ölkəsinə xas olan və başqa bir dilə və başqa bir reallığa yad olan realiyaları təmsil edən, ekvivalenti olmayan ifadələrdir."[21, s.102]. Digər bir nəzriyyəçi-tərcüməşünas V. İ. Jelvisə görə, lakunalar "bəzi dillərdə və mədəniyyətlərdə "fərqlilik" kimi təyin olunan, lakin digərlərində işarə olunmayan, yəni sosial cəhətdən sabit ifadə tapmayan ifadələrdir" [11, s.136]. O təsdiq edir ki, lakunalar iki fərqli mədəniyyətin konseptual, linqvistik və emosional kateqoriyalarını müqayisə edərkən yaranan uyğunsuzluqlardır.

Lakunologiyanın baniləri Y. A. Sorokin, I. Y. Markovina, V. L. Muravyov, V. İ. Jelvis, Q. V. Bıkova, G. A. Antipov, O. A. Donskix və b. dil lakunalarının nəzəri dərk edilməsinə, onların kompensasiya və yaxud uğurla aradan qaldırılmasına çox böyük təkan vermişlər. Adıçəkilən tədqiqatçılar dildaxili və dillərarası lakunar anlayışlarını bu və ya digər şəkildə fərqləndirməklə, müxtəlif səpkili lakuna tərifləri qarışıqlığını həll etməklə, belə bir qlobal linqvistik fenomenin daha məhsuldar və praktik araşdırılması istiqamətində yeni nəsil dilçilərinə təkan vermişlər. Q. V. Bıkova belə fikrini isbatlayır ki, dil lakunaları dilləri və ya dil daxilindəki vahidləri müqayisə edərkən ortaya çıxır və onlar arasında mütləq, nisbi, üslub, vektorial və s. kimi növləri məlumdur. Mədəni (kulturoloji) lakunalar isə digər mədəniyyətlərin etnik norma və adət-ənənələri haqqında məlumatsızlıqdan yaranan anlayışlardır və onlar etnoqrafik, assosiativ, ideoloji və s. kimi növlərə bölünürlər. Beləliklə, 2000-ci ildə Q.V. Bıkova lakunalar nəzəriyyəsini leksik sistemologiyanın bir kateqoriyası kimi formalaşdırdı. O, lakunaları "milli dil sistemində

linqvistik ifadə vasitələrinə malik olmayan çoxsaylı anlayışlar", "leksemsiz sememalar", "leksik sistemdə sıfır leksem statusunda müəyyən yer tutan virtual leksik vahid, ideal məzmun" kimi nəzərdən keçirir, bir rus dili sinxron sistemində 16 dildaxili lakuna aşkarlayır. [5, 3; 5, 10]

Maraqlıdır ki, dil və mədəni aspektlərin kəsişməsində yaranan linqvomədəni lakunalar da müəyyən edilir. Məsələn, etnik kontekstin uyğunsuzluğu səbəbindən aydın olmayan və ya səhv şərh edilə bilən mədəni spesifik ifadələrin və ya terminlərin istifadəsi zamanı üzə çıxan lakunar vahidlər linqvomədəni və yaxud da linqvokulturoloji lakunalar adlandırılır. Dildə lakunarlıq xüsusiyyətinin və lakunar vahidin fərqli anlayışlar olduğunu təsdiqləyən bir çox tədqiqatçı lakunaların təbiətini mümkün qədər ətraflı anlamaq üçün onların müxtəlif təsnifatlarını və aradan qaldırılmasını, yəni lakunaların özlərinin necə müəyyən edilməsini nəzərə alırlar. Bəzi alimlər lakunaları aşkar edərkən yalnız başqa dildə bir söz üçün ekvivalent sözün olmamasından deyil, həm də başqa bir dilin dil sistemində müvafiq anlayışın olmamasından danışmağın daha düzgün olduğuna inanırlar.[13,s.7]

Beləliklə, müxtəlif tədqiqatçıların tərifl ərində açıq bir ziddiyyətin olduğunu qeyd etmək olar: bəziləri lakunanı birbaşa ekvivalent olmayan dil vahidi hesab edir, digərləri isə əksinə, lakunanı boşluq, bir və ya digər dildə dil vahidinin mənasına uyğun leksemanın olmaması kimi başa düşürlər. Zənnimizcə, bu onunla əlaqədardır ki, bir çox dilçi bir dildə ekvivalenti olmayan vahidin başqa bir dildə lakunar vahidin olduğunu təsbit edirlər, lakin bunların fərqli vahidlər olduğunu sübut etmək üçün əsas var və buna görə də ekvivalent olmayan vahidi lakunar vahidlə eyniləşdirmək mümkün deyil. Buna baxmayaraq, dilçilər nadir hallarda lakunanın sadalanan tərifl ərinin dissonansı ilə bağlı fikir ayrılıqlarına malik olurlar ki, bu da öz növbəsində bəzi anlaşılmazlıqlara səbəb olur. Bir dildə vahidin olmaması onun digər dildə mövcudluğu ilə eyniləşdirilə bilməz. Bu məntiqə görə, istənilən dil, digərləri ilə müqayisədə, "doldurulmuş boşluqlardan çox sonsuz sayda doldurulmamış boşluğa malik olacaq."[18, s.9]

Müasir Azərbaycan dilçiliyində lakunanın tipoloji-nəzəri dəyərləndirməsinə həsr olunmuş elmi araşdırmalar (S.Məhərrəmova, T.Əkbərli, T.Abdıyeva, E.Babayev və b.) öz orijinallığı ilə diqqət çəkir. Azərbaycanlı dilçilər lakunaları xarici mədəniyyət mətnlərinin anlaşılması və təfsiri ilə əlaqəli fənlərarası problem kimi, habelə mədəniyyətlərarası ünsiyyət, tərcüməşünaslıq və koqnitiv dilçilik kontekstində təhlil edir, xarici mədəni mətnlərin anlaşılmasına və şərhinə xüsusi diqqət yetirirlər. S. Məhərrəmova öz yaradıcılığında lakunaların mətn təfsirinin mürəkkəb məsələlərini anlamağa kömək edən və mədəniyyətlərarası informasiya mübadiləsinin keyfiyyətini artıran bir fənn kimi əhəmiyyətini vurğulamış, onların əsasən motivasiyalı və motivasiyasız növlərini araşdırmışdır.[16] T.Əkbərli müasir ingilis və Azərbaycan dillərində leksik lakunaların müqayisəli təhlilini verərək, dil lakunalarının insanların reallığı, təbiəti, hadisələri fərqli milli-mədəni, zehni, tarixi-coğrafi, sosial-psixoloji və ya digər cəhətlərə görə qavralma məhsulu kimi təqdim edir. [23, s.29] O, öz növbəsində müasir rus dilçiləri Y.A. Sorokin və İ.Y. Morkovina tərəfindən təqdim edilmiş lakuna nəzəriyyəsi və təsnifatına əsaslanaraq Azərbaycan dilindəki dil lakunalarının müxtəlif məqsədli işlədilmə məqamlarına görə: dillərarası və dildaxili, subyektiv, fəal-kommunikativ, mətn və mədəni məkan (landşaft) lakunalar, habelə əks etdirdikləri mənalara görə: maddi və mücərrəd, ümumi və xüsusi, motivləşən və motivləşməyən, nitq hissələri ilə əlaqəli lakunalara, semantik məzmunlarına görə: sistemli linqvistik və etnoqrafik lakunalara, daşıdıqları funksiyalara görə: mütləq nə nisbi lakunalara bölür. Qeyd etmək lazımdır ki, T.Əkbərli ingilis və Azərbaycan dillərinin lakunar vahidlərinin müqayisəli təhlil sayəsində lakunaların uğurlu təqdiminə nail olur. E.Babayev Avropanın məşhur dilçisi B.Uorfun təqdim etdiyi "Mərkəzi Avropa standartı"na yaxından əlaqəli və tipoloji cəhətdən oxşar dillərdə metaforik sistemləri müqayisə edərkən, hər hansı bir linqvistik-konseptual sahədə dünya mənzərəsinin fərdi detallarının fərqliliyinin nəzərə çarpdığına diqqəti çəkir, leksik lakunaların mütləq və nisbi olaraq bölündüyünü vurğulayır, onların relevant və spesifik xüsusiyyətlərini müqayisəli təhlilini verir [3, s.8].

Nəticə: Nəticə olaraq qeyd etmək lazımdır ki, müasir dünya dilçiliyində linqvistik lakuna fenomeninin nəzəri öyrənilməsi dilçiliyin müqayisəli-tipoloji təhlil sahəsində və tətbiqi-tərcümə proseslərində böyük elmi-praktik əhəmiyyət kəsb edir. Beləliklə, özünü müxtəlif formalarda -

leksik, qrammatik və etnoqrafik formalarda göstərən lakunaların və ümumiyyətlə dildə lakunarlığın öyrənilməsinə həsr edilmiş çoxsaylı fundamental-nəzəri tədqiqat əsərlərinə əsasən demək olar ki, qloballaşan dünyada dilçilik elmi lakunalar fenomenini öyrənməklə dillər və ya xalqlararası inteqrasiyanın və milli-mədəni mübadilənin zənginləşməsinə xüsusi töhfə verir.

Ədəbiyyat siyahısı

1.https://ru.wikipedia.org/wiki/Лакуна.
2.Антипов Г.А., Донских О.А., Марковина И.Ю., Сорокин Ю.А. Текст как явление культуры. - Новосибирск, 1989. — 194 с.
3.Бабаев Э. В. Лексические лакуны. Ученые записки Таврического национального университета имени В. И. Вернадского Серия «Филология. Социальные коммуникации». Том 26 (65), № 2. 2013
4.Л.С. Бархударов: Язык и перевод. Вопросы общей и частной теории перевода. Издательство: ЛКИ, 2008. ISBN 978-5-382-00577-5 [1]
5.Быкова Г.В. Лакунарность как категория лексической системологии. – Благовещенск: БГПУ, 2003.-368 с. Российская государственная библиотека (РГБ) rsl.ru
6.Вахитова Т. Ф. Лексические лакуны как фрагмент национальной языковой картины мира: на материале казахского и русского языков, диссертации и автореферата по ВАК РФ, Уфа, 2018.-257с.
7.Верещагин Е.М., Костомаров В.Г. Язык и культура: Лингвострановедение в преподавании русского языка иностранцам,- М.: Русский язык, 1990. - 246 с.
8.Виноградов В.С. Введение в переводоведение (общие и лексические вопросы). - М.,2001. -213 с.
9.Влахов С. И. Непереводимое в переводе / С. И. Влахов, С. П. Флорин. – 2-е изд., испр. и доп. – М.: Высш. шк., 1986. – 346 с.
10.Жаркова Т.И. Лакуны в межкультурной коммуникации. - Актуальные проблемы филологии и педагогической лингвистики. 2011. № 13. с. 225-227. https://cyberleninka.ru/article/lakuny
11.Жельвис В.И., Марковина И.Ю. Опыт систематизации англо-русских лакун // Исследование проблем речевого общения. – М.: Наука, 1979. –194с.
12.Данильченко Т. Ю. Понятие и сущность лакун https://cyberleninka.ru/article/ponyatie-i-suschnost-lakun.pdf
13.Дашидоржиева Б. В. История лакунологии: истоки, пути становления и развития https://cyberleninka.ru/istoriya-lakunologii-istoki-puti-stanovleniya-i-razvitiya
14.Э.Сапир, Б.Уорф Bstudy https://bstudy.net › filosofiya
15. Гак В.Г. Сравнительная типология французского и русского языков. –Л .: Просвещение. Ленингр. от-э, 1977. –С. 261.
16.Магеррамова С.А. Сравнительное исследование парадигматических отношений в лексической системе русского и азербайджанского языков, диссертация на соиск. учен. степ. д.филол.н.Институт Языкознания им. Насими НАНА.- Баку, 2004
17.Попова З.Д. Стернин И.А. Когнитивная лингвистика(Лингвистика и межкультурная коммуникация. Золотая серия)-М..АСТ: Восток-Запад, 2007. — 314 с.—ISBN: 978-5-17-045103-6
18.Сорокин Ю. А., Марковина И. Ю., Крюков А. Н. и др. Этнопсихолингвистика / отв. ред. Сорокин Ю. А.. — М.: Наука, 1988. — 192 с.
19.Антипов Г.А., Донских О.А., Марковина И.Ю., Сорокин Ю.А. Текст как явление культуры. — Новосибирск: Наука, 1989.
20. Степанов Ю.С. Французская стилистика [Текст]- М.: Высш. шк., 1965. – 356 с.
21.Рецкер Я. И. Теория перевода и переводческая практика: Очерки лингвистической теории перевода. — М.: Международные отношения, 1974. — 216 с.

22.Толипова Д.Г. Лексические лакуны в узбекском и русском языках –диссертация доктора философии (phd) по филологическим наукам, Ташкент – 2023, – 135с.
23.Əkbərli T. Linqvistik və etnoqrafik lakunlar, Dil və ədəbiyyat, IX cild, №4, 2019 /adu_dil_edebiyyat/2019/04/734053.pdf
24.Hockett 1954: CH. F. Hockett. Chinese versus English // Language in culture. Chicago, 1954.
25.Hale K., Gaps in grammar and culture // Linguistics and anthropology: in Honor of C.F. Voegelin. - Jisse, 1975, pp.295-315.
26.Bentivogli L, Pianta E. Looking for lexical gaps.Proceedings of the ninth EURALEX International,
27.邓艳玲。语义缺视角下的商务英语翻译研究。济南职业学院学报，2017
28.Igor Panasiuk, Hartmut Schroder (Hg. „Lakunen-Theorie: ethnopsycholinguistische aspekte der sprach- und Kulturforschung"// Semiotik der Kultur. Band 5. Lit Verlag, Berlin, 2006. 352 S.
29.Dasen P. R. Development of geocentric spatial language and cognition : an eco-cultural perspective /– ISBN 978-0-521-19105-0

Насиба Аббасова

Краткая теоретико-парадигмальная характеристика языковых лакун

Резюме

В статье «Краткая теоретически-парадигматическая характеристика языковых лакун» утверждается, что феномен лакун используется в лингвистике со второй половины XX века и относится к различным аспектам как лингвистики (лингвокультурология, психолингвистика, социолингвистика и др.), так и культурологии (социокультурология, этнография, этнокультурология и др.). История развития объяснительного исследования теории языковых лакун и языковой лакунарности доказывает, что проблема лакунарности в языковых и речевых единицах еще не нашла своего специфического научно-теоретического анализа, то есть многие серьезные и фундаментальные исследования выявили сложность и неопределенность этого феномена. Таким образом, из-за отсутствия четкого разграничения между вышеупомянутыми понятиями, лингвисты-исследователи, подтверждающие спорность понятий лакунарности и лакунарной единицы в языке, учитывают различные классификации (абсолютную, относительную, стилистическую, векторную, мотивированную, немотивированную и т. д.) и методы исключения, чтобы как можно полнее понять лингвистические особенности лакуны, а не ее культурную сущность. В современной мировой лингвистике (Европа, Россия, Азербайджан и Азия) научно-теоретический взгляд на проблему языковых лакун отражает весьма обширный корпус. В лингвистико-теоретическом корпусе, который по своей природе не столь разнообразен или противоречив, лакуны воспринимаются как отсутствие слова для выражения определенного понятия в лексической системе языка (внутри языка), как факт лакунарной несогласованности в языковом мировоззрении (между языками), возникающий вследствие национально-культурных, исторических или социально-социальных особенностей народа. Исходя из этой темы, содержащейся в рамках данной статьи, можно сказать, что вопрос изучения феномена лингвистической лакуны в теоретической лингвистике имеет большое научное и практическое значение в области сравнительно-типологического анализа лингвистики и в прикладных переводческих процессах. На основе многочисленных фундаментальных исследований, посвященных изучению лакун, проявляющихся в различных формах – лексических, грамматических и культурных, а также лакун в языке в целом, можно сказать, что мировая лингвистика вносит особый вклад в обогащение коммуникации между языками и народами, а также в национально-культурный обмен посредством изучения феномена лакун. При этом основной целью данного исследования является изучение специфики языкового сознания различных культур, степени сходства или различия в мировоззрении участников межъязыкового диалога, а также определение

непонятной природы феномена лакун, и в результате оценивается роль и значение теории лакун в гармонизации или интеграции местных и иностранных идей путем выбора успешных переводческих тактик и стратегий.

Ключевые слова: *лингвистические лакуны, феномен лакунарности, национально-лингвистическая несогласованность, металингвистика, лакунология*

Nasiba Abbasova

A brief theoretical-paradigmatic characterization of linguistic lacunae

Summary

The article "Brief theoretical and paradigmatic characteristics of language gaps"states that the phenomenon of lacunae has been used in linguistics since the second half of the 20th century and belongs to various aspects of both linguistics (linguoculturology, psycholinguistics, sociolinguistics) and cultural studies (socioculturology, ethnography, ethnoculturology, etc.). The history of the development of the explanatory study of the theory of linguistic lacunae and language lacunarity proves that the problem of lacunarity in language and speech units has not yet found its specific scientific-theoretical analysis, that is, many serious and fundamental studies have revealed the complexity and uncertainty of this phenomenon. Thus, due to the lack of a clear distinction between the aforementioned concepts, linguists-researchers, who confirm that the lacunarity feature and the lacuna unit in language are controversial concepts, have taken into account various and different classifications (absolute, relative, stylistic, vectorial, motivated, unmotivated, etc.) and elimination methods in order to understand the linguistic features of the lacuna as comprehensively as possible, rather than the cultural essence of the lacuna. In modern world linguistics (Europe, Russia, Azerbaijan and Asia), the scientific-theoretical view of the problem of language lacunas reflects a very comprehensive corpus. In the linguistic-theoretical corpus, which is not so different or contradictory in nature, lacunas are perceived as the absence of a word to express a certain concept in the lexical system of the language (within the language), as a fact of lacuna inconsistency in the language worldview (between languages) arising due to the national-cultural, historical or socio-social characteristics of a people. Based on this topic, which is contained in the framework of one article, it can be said that the issue of studying the phenomenon of linguistic lacuna in theoretical linguistics is of great scientific and practical importance in the field of comparative-typological analysis of linguistics and in applied-translation processes. Based on numerous fundamental studies devoted to the study of lacunae, which manifest themselves in various forms - lexical, grammatical and cultural forms, and lacunae in language in general, it can be said that world linguistics makes a special contribution to the enrichment of communication between languages and peoples and national-cultural exchange by studying the phenomenon of lacunae. While studying the specificity of the linguistic consciousness of different cultures, studying the degrees of similarity or difference in the worldview of participants in interlingual dialogue, as well as determining the incomprehensible nature of the phenomenon of lacunae, is the main goal of this research, and as a result, the role and significance of the lacuna theory in the harmonization or integration of local and foreign thoughts by choosing successful translation tactics and strategies is evaluated.

Key words: *linguistic lacunae, the phenomenon of lacunarity, national-linguistic inconsistency, metalinguistics, lacunology.*

Çapa tövsiyə edən: AMEA Nəsimi adına Dilçilik İnstitutu

Rəyçilər: fil.e.d. Mayıl Əsgərov
fil.e.d. Rasim Heydərov